

**Vaqif Şıxı oğlu Qurbanov – 75 il!**

2023-cü il aprel ayının 1-də, neftli-qazlı hövzələrin litologiyası sahəsində tanınmış alim, geologiya-mineralogiya elmləri doktoru, professor Vaqif Şıxı oğlu Qurbanovun 75 yaşı tamam oldu.

V.Ş.Qurbanov 1 aprel 1948-ci ildə Ağsu rayonunun Bico kəndində anadan olmuşdur. 1966-cı ildə orta məktəbi bitirmiş və həmin ildə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur. V.Ş.Qurbanov təhsilini davam etdirməklə 26 Bakı Komissarları adına NQÇİ-nin (indiki Bibiheybət NQÇİ) mədənlərində mühəndis-geoloq kimi çalışmışdır. 1969-cu ildə Ümumittifaq Elmi-tədqiqat Geofizika İnstitutunda mühəndis vəzifəsinə təyin olunmuşdur. 1972-ci ildə təhsilini müvəffəqiyyətlə başa vurmuşdur. 3 may 1976-cı il tarixdən Azərbaycan Neft və Kimya İnstitutunda çalışmış, 1981–1984-cü illərdə həmin institutun dissertantı olmuşdur. 1976–1982-ci illərdə böyük laborant və laboratoriya müdiri vəzifələrində çalışmışdır. 1985-ci ildə AMEA-nın Geologiya İnstitutunun (indiki Geologiya və Geofizika İnstitutu) müdafiə Şurasında “Dağıstanın düzənlik və Cənubi Kalmıkiyanın Perm-Trias çöküntülərinin əmələgəlmə şəraiti və neftqazlılığı” mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək, geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsini almışdır.

1982-ci ildən Azərbaycan Neft və Kimya İnstitutunda assistent, 1986-cı ildən isə dosent kimi pedaqoji fəaliyyət göstərmişdir.

1995-ci ildə İnstitutun Elmi Şurasının qərarı ilə V.Ş.Qurbanov doktorluq dissertasiya işini tamamlamaq məqsədilə Moskvaya, Rusiya Elmlər Akademiyasının Geologiya İnstitutuna ezam olunmuşdur. SSRİ-nin və Rusiyanın məşhur litoloq alimi, professor N.V.Xolodovun rəhbərliyi ilə laboratoriyada çox faydalı tədqiqat işləri aparmışdır. O, həmin illərdə doktorluq elmi işini tamamlayaraq Bakıya qayıdıb öz doğma İnstitutunda pedaqoji fəaliyyətini davam etdirmişdir.

2007-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) Geoloji-kəşfiyyat fakültəsinin dekanı seçilmişdir. 2008-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 2011-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasının tədris işləri üzrə prorektoru təyin olunmuşdur. 2013-cü ildə “Litologiya, mineralogiya və petroqrafiya” kafedrasında professor elmi adını almış, həmin ildə “Neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı” kafedrasının müdiri seçilmişdir. 2015-ci ilin yanvar ayından 3 sentyabr 2015-ci il tarixə kimi Azərbaycan Dövlət Neft Akademiyasının rektoru vəzifəsini icra etmişdir.

2016-cı ildən AMEA-da yeni yaradılmış Neft və Qaz İnstitutunda direktorun elmi işlər üzrə müavini vəzifəsinə təyin olunmuş və hal-hazırda institutun icraçı direktoru vəzifəsində çalışır.

V.Ş. Qurbanovun əsas tədqiqat istiqaməti neftli-qazlı hövzələrin geologiyası və axtarış-kəşfiyyat metodlarıdır. Elmi-tədqiqat obyektlərindən Rusiyanın və Qazaxıstanın Perm-Trias çöküntülərinin litologiyası və həmin çöküntülər ilə əlaqədar neftqazlılığının öyrənilməsidir. Onun son dövrlərdə apardığı elmi-tədqiqat işləri Azərbaycanın Maykop-Miosen və Pliosen çöküntülərinin litologiyası və neftqazlılığı ilə əlaqədardır.

Beynəlxalq və ölkə səviyyəli qrant layihələrində elmi rəhbər və icraçı kimi iştirak etmişdir. Uzun illərdir ki, Bakı Dövlət Universitetində əvəzçi professor kimi pedaqoji fəaliyyətlə məşğuldur.

Vaqif müəllim 150-dən çox elmi məqalənin, 3 monoqrafiyanın, 1 dərsliyin, 6 dərs vəsaitinin müəllifidir. Onun elmi rəhbərliyi ilə 2 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. O, Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin müdafiə şuralarının üzvüdür.

Xidmətləri yüksək qiymətləndirilən professor V.Qurbanov 2010-cu ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Tərəqqi” medalı və AMEA-nın Yer Elmləri Bölməsinin Fəxri Fərmanları ilə təltif olunmuşdur.

Vaqif müəllimi 75 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və elmi-pedaqoji fəaliyyətində uğurlar arzulayırıq.

**Fəxrəddin Qədirov, Neft və Qaz İnstitutunun baş direktoru, akademik**